# PEDAQOGİKA

**Gülnar Abdullayeva**
*Azərbaycan Dövlət Universiteti*
*Bakı Dövlət Universiteti*
*https://orcid.org/0000-0002-0373-9404*

**10.30546/2518-752X.1.601.0109**

## İBTİDAİ SİNİFLƏRDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏTBİQİNİN PEDAQOJİ ƏSASLARI

***Açar sözlər:*** *ingilis dilinin tədrisi, rəqəmsal texnologiyalar, fəal təlim metodları, interaktiv dərs, kommunikativ bacarıqlar, təhsildə innovasiya, koqnitiv inkişaf*

***Keywords:*** *english language teaching, digital technologies, active learning methods, interactive lesson, communication skills, educational innovation, cognitive development*

***Ключевые слова:*** *преподавание английского языка, цифровые технологии, методы активного обучения, интерактивный урок, коммуникативные навыки, инновации в образовании, когнитивное развитие*

**Giriş.** Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı təhsilin bütün səviyyələrində əhəmiyyətli dəyişikliklərə yol açıb. Bu, tədris metodlarının, dərs vəsaitlərinin və müəllim-şagird münasibətlərinin yenidən qiymətləndirilməsini tələb edir. Xüsusilə ibtidai təhsildə bu dəyişikliklər mühüm rol oynayır, çünki bu mərhələ şagirdlərin gələcək təhsil təcrübəsinin əsasını formalaşdırır. Bu kontekstdə, rəqəmsal texnologiyaların ingilis dili dərslərində tətbiqi tədris prosesinin daha interaktiv, vizual və əyləncəli şəkildə təşkili üçün yeni imkanlar yaradır. Ənənəvi təlim metodlarının məhdud imkanlarından fərqli olaraq, rəqəmsal vasitələr şagirdlərə xarici dili eşitmə, görmə və hətta hərəkət etməklə öyrənmək fürsəti təqdim edir. Bu yanaşma dil öyrənmə prosesini daha çox real həyatla əlaqəli kontekstə əlaqələndirdiyi üçün daha səmərəli olur.

Xüsusilə ibtidai sinif yaş dövrü pedaqoji baxımdan öyrənməyə yüksək marağın və aktivliyin olduğu bir mərhələdir. Bu yaşda uşaqlar yeni məlumatları oyun, vizual təqdimat və təcrübə vasitəsilə daha asan mənimsəyirlər. Məhz bu səbəbdən rəqəmsal texnologiyaların tətbiqi onların öyrənməyə olan marağını artırır, tədris prosesini monotonluqdan uzaqlaşdırır və individual yanaşmanı təmin edir. Mövzu üzrə aparılan təhlillər nəticəsində aydın olur ki, müasir rəqəmsal vasitələr (interaktiv lövhələr, mobil tətbiqlər, onlayn platformalar, rəqəmsal lüğətlər, video və audio materiallar və s.) şagirdlərin dinləmə, danışıq, oxu və yazı bacarıqlarının

kompleks şəkildə inkişafına imkan yaradır. Eyni zamanda, müəllimlərin bu texnologiyalardan effektiv istifadə etmə bacarığı və təhsil müəssisələrinin texniki imkanları da bu prosesdə mühüm rol oynayır. Bu səbəbdən, müəllimlərin peşəkar inkişafı və təhsilin rəqəmsallaşdırılması sahəsində atılacaq addımlar təlimin keyfiyyətinə birbaşa təsir göstərir. Beləliklə, məqalədə ibtidai siniflərdə ingilis dili dərslərinin müasir tələblər əsasında təşkili baxımından rəqəmsal texnologiyaların rolu və tətbiqi sahələri geniş şəkildə təhlil olunur və bu istiqamətdə mövcud olan imkanlar araşdırılır.

Müasir təhsil sistemində rəqəmsal texnologiyaların rolu danılmazdır. Texnoloji vasitələr yalnız təlimin təşkili və idarə olunmasında deyil, eyni zamanda təlimin məzmununda və öyrənmə üsullarında da köklü dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə ibtidai siniflərdə bu texnologiyaların tətbiqi təlimin daha maraqlı, dinamik və şagird yönümlü həyata keçirilməsinə şərait yaradır. Rəqəmsal texnologiyalar təhsil prosesində məlumatların vizual (şəkil, qrafik, animasiya və video) və audial (audio fayllar, dinləmə tapşırıqları, interaktiv səsləndirmələr və s.) şəkildə təqdim olunmasını təmin edir. Bu isə şagirdlərin dərsə marağını artırmaqla yanaşı, onların dərs materialını daha yaxşı anlamasına və yadda saxlamasına kömək edir. İnsan beyninin görmə və eşitmə vasitəsilə məlumatları daha effektiv mənimsədiyi nəzərə alındıqda, bu texnologiyaların istifadəsi tədrisin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. İnteraktiv lövhələr, planşetlər, kompüter proqramları, rəqəmsal oyunlar və onlayn platformalar kimi vasitələr müəllimlərə dərsləri daha çevik planlamağa və fərdiləşdirilmiş təlim imkanları yaratmağa şərait yaradır. Məsələn, interaktiv lövhədə sözlərin tələffüzünü eşidərək təkrar etmək, şəkillərlə yeni sözləri öyrənmək, video ilə real situasiyaları izləmək, animasiyalarla dil qaydalarını izah etmək şagirdlərin dərsə aktiv qoşulmasını və motivasiyalarının artmasını təmin edir. Rəqəmsal texnologiyalar, həmçinin təlimin fərdiləşdirilməsinə imkan verir. Hər bir şagirdin bilik səviyyəsinə uyğun tapşırıqlar, oyunlar və materiallar təqdim edilə bilər. Bu, təlimin daha inklüziv və hamı üçün əlçatan olmasına (məsələn, qismən zəif şagirdlər üçün sadələşdirilmiş interaktiv vəsaitlər, daha fəal şagirdlər üçün isə kompleks öyrənmə resursları tətbiq edilə bilər) şərait yaradır. Digər tərəfdən, rəqəmsal texnologiyalar müəllimlərin dərs materiallarını daha səmərəli şəkildə təqdim etməsinə, həmçinin dərsdə şagirdlərin nailiyyətlərini dərhal izləməsinə və qiymətləndirməsinə imkan yaradır. Onlayn testlər, dərs simulyasiyaları və elektron portfoliolar bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Nəticə etibarilə, rəqəmsal texnologiyalar ibtidai siniflərdə tədris prosesini daha fərdiləşdirilmiş və interaktiv edir. Bu texnologiyalar şagirdləri passiv dinləyici olmaqdan çıxarıb, onları öyrənmə prosesinin fəal iştirakçılarına çevirir və onların praktik bacarıqlarını sistemli şəkildə inkişaf etdirir. J. Harmer qeyd edir ki, "müasir dövrdə ingilis dilinin tədrisi yalnız qrammatik qaydaların öyrədilməsi ilə məhdudlaşmamalı, əksinə, şagirdin aktiv iştirakını, maraq və motivasiyasını artıracaq interaktiv və texnoloji vasitələrlə zənginləşdirilməlidir". Tədqiqatçının fikrincə, texnologiyalar dil öyrənməni vizual, dinamik və fərdiləşdirilmiş formaya salaraq daha səmərəli nəticələrin əldə olunmasına imkan yaradır [3]. Həmçinin G.Dudeney və N.Hockly texnologiyanın dil tədrisinə inteqrasiyasını "XXI əsr bacarıqlarını inkişaf etdirmək üçün əsas vasitə" adlandırır. Onlar qeyd edirlər ki, rəqəmsal vasitələr şagirdin təlimə cəlb olunmasını və fərdi öyrənmə tempinə uyğunlaşmanı təmin

edir. Müəlliflərə görə, texnologiyanın düzgün seçilməsi və məqsədəuyğun tətbiqi müəllimin peşəkarlığı ilə birbaşa əlaqəlidir [2]. M. Varşauerin fikrincə isə, "kompüter əsaslı dil tədrisi xüsusilə aşağı yaş qruplarında dil bacarıqlarının formalaşmasında mühüm rol oynayır". O, texnologiyanın yalnız texniki deyil, eyni zamanda pedoqoji məqsədlərlə uyğunlaşdırılmış şəkildə istifadə edilməli olduğunu vurğulayır [5].

İbtidai sinif şagirdləri yeni informasiyaları maraqla qəbul edən, öyrənməyə meyilli və əylənərək öyrənən yaş qrupuna aiddirlər. Bu xüsusiyyətləri nəzərə alaraq, ingilis dili dərslərinin təşkilində ənənəvi metodlardan fərqli olaraq, innovativ və yaradıcı təlim yanaşmalarının tətbiqi böyük əhəmiyyət daşıyır. İnnovativ yanaşmalar şagirdlərin aktivliyini artırır, onların motivasiyasını gücləndirir və dil bacarıqlarının təbii mühitdə inkişafına şərait yaradır. Vıqotskinin "yaxın inkişaf zonası" nəzəriyyəsinə əsasən, uşaqların öyrənmə prosesi sosial mühitlə, müxtəlif vasitələr və daha təcrübəli şəxslərlə (məsələn, müəllim və ya bələdçi) qarşılıqlı əlaqədə baş verir [7]. Bu baxımdan, rəqəmsal texnologiyalar müasir vasitəçi rolunu oynayaraq şagirdin inkişafına təkan verir və interaktiv mühitin yaradılmasına şərait yaradır. Bu kontekstdə aşağıdakı innovativ üsul və texnologiyaların tətbiqi ingilis dili dərslərinin daha səmərəli təşkilinə imkan verir:

1. ***Multimedia resurslarının istifadəsi.*** Multimedia vasitələri videoçarxlar, audio materiallar, animasiyalar və slaydlar dərs materialını daha canlı və efektiv formada təqdim etməyə imkan yaradır. Şagirdlər xarici dilin səslənməsini eşidərək, mimika və hərəkətlərlə müşahidə edərək, sözləri daha yaxşı yadda saxlayırlar. Bu tip materiallar həm görmə, həm də eşitmə yolu ilə qavranıldığından, informasiyanın yadda qalma ehtimalı artır.

2. ***Rəqəmsal oyunlar və mobil tətbiqlər.*** Uşaqlar oyun oynayaraq öyrənməyə daha çox maraq göstərirlər. Bu xüsusda "Kahoot!", "Wordwall", "Quizlet", "Duolingo Kids" kimi mobil və veb-əsaslı tətbiqlər dərsdə motivasiyaedici mühit yaradır. Şagirdlər bu kimi vasitələrlə söz ehtiyatını genişləndirir, qrammatik qaydaları praktik şəkildə mənimsəmək imkanı əldə edirlər.

*3. Layihə və problem əsaslı öyrənmə. İbtidai siniflərdə kiçik layihələr və sadə problem tapşırıqlar (məsələn, sevdikləri heyvan haqqında təqdimat hazırlamaq, sinif daxili sadə dialoq canlandırmaq) şagirdlərin tənqidi təfəkkürünü və ünsiyyət bacarıqlarını inkişaf etdirir. Bu yanaşma həm dil biliklərini praktik kontekstdə tətbiq etməyə, həm də komanda şəklində işləməyə imkan yaradır.*

*4. Virtual və artırılmış reallıq (VR və AR). Texnologiyanın imkanlarından istifadə edərək, ibtidai sinif şagirdləri "səyahətə çıxmış" kimi müxtəlif ölkələri, təbiət hadisələrini və situasiyaları virtual olaraq izləyə və həmin mövzularda ingiliscə danışıq bacarıqlarını tətbiq edə bilərlər. Bu texnologiyalar şagirdin öyrəndiyi informasiyanı həyatla əlaqələndirərək yaddaşda daha uzun müddət saxlanmasına səbəb olur.*

*5. Kommunikativ yanaşma və situativ təlim. İngilis dili dərslərində şagirdlərin gündəlik həyatla bağlı ifadələrdən istifadə etdiyi dialoqların qurulması (məsələn: mağazada alış-veriş, məktəbdə müəllimlə söhbət, dostlarla salamlaşma və s.) onların danışıq bacarıqlarını inkişaf etdirir. Beləliklə, dil yalnız qaydalar toplusu kimi deyil, real ünsiyyət vasitəsi kimi qavranılır.*

*6. Fərdiləşdirilmiş tədris və adaptiv texnologiyalar. Rəqəmsal platformalar vasitəsilə hər bir şagirdin fərdi dil və bilik səviyyəsinə uyğun dərs materialları və tapşırıqlar təqdim etmək mümkündür. Bu yanaşma həm zəif, həm də güclü şagirdlər üçün uyğun inkişaf trayektoriyası yaradır. Müəllimlər şagirdlərin inkişafını onlayn şəkildə izləyə və fərdi rəy verə bilirlər.*

*S. Papert hesab edirdi ki, şagirdlər öyrənməni yalnız qəbul edən deyil, həm də yaradan və tətbiq edən subyekt kimi mənimsəməlidirlər. Onun konstruktivist yanaşmasına əsasən, təlim prosesində şagirdin aktiv iştirakı və yaradıcı təcrübəyə cəlb olunması öyrənmənin dərinləşməsinə xidmət edir [6]. Rəqəmsal texnologiyalar bu yaradıcı təcrübənin təşkili üçün geniş imkanlar yaradır, vizual, eşitmə və kinestetik yolla təqdim edilən məlumatlar şagirdin marağını artırır və fərdi yanaşma üçün şərait formalaşdırır. Vəziyyəti daha aydın təhlil etmək və bu nəzəri yanaşmanı praktik müstəvidə nümayiş etdirmək üçün ibtidai siniflərdə ingilis dili dərslərində rəqəmsal texnologiyalardan istifadə ilə həyata keçirilən bir dərs nümunəsi (keys) təqdim edilmişdir. Aşağıda cədvəldə qeyd olunan nümunə real dərs şəraiti üçün nəzərdə tutulmuş praktiki modeldir və interaktiv təlim metodları, oyun texnologiyaları, həmçinin rəqəmsal resursların məqsədyönlü istifadəsinə əsaslanır.*

*Cədvəl. İbtidai sinifdə İngilis dili dərsi üzrə nümunə dərs planı*

İbtidai sinifdə İngilis dili fənni üzrə dərs planı nümunəsi
**Mövzu:** Colors (Rənglər)
**Sinif:** II sinif
**Dərsin müddəti:** 45 dəqiqə
**Məqsəd:** Əsas rəng adlarını öyrətmək, onların düzgün tələffüzünü təmin etmək və sadə cümlələrdə istifadə edərək ifadə etmə bacarıqlarını inkişaf etdirmək.
**Nəticə:** Şagirdlər əsas rəng adlarını tanıyır, sadə cümlələrlə ifadə edir və interaktiv fəaliyyətlərdə tətbiq edirlər.

| № | Mərhələ | Vaxt | Fəaliyyətin məzmunu | Rəqəmsal texnologiyalar | Nəticə |
|---|---|---|---|---|---|
| 1. | **Motivasiya** | 5 dəq. | "Learn Colors with Songs" adlı animasiyalı video göstərilir. Şagirdlər videodakı mahnıya qoşularaq ritmik şəkildə əl çalır və rənglərin adlarını təkrarlayırlar. Bu fəaliyyət şagirdlərin dinləmə, tələffüz və interaktiv öyrənmə bacarıqlarının inkişafına xidmət edir. | YouTube Kids, interaktiv lövhə | Dərsə emosional baximdan hazır olur və mövzuya maraq göstərir. |
| 2. | **Tədqiqat aparılması** | 8 dəq. | Şagirdlər planşetlərdə rəng və obyektlərə dair interaktiv oyunu oynayır ("Find the color" və s.). | Planşetlər, "ABC Kids" tətbiqi | Təqdim olunan vizual materiallara əsaslanaraq rənglər haqqında ilkin fərziyyələr irəli sürür. |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3. | **Məlumat mübadiləsi** | 7 dəq. | Cütlərlə iş: Şagirdlər bir-birlərinə obyektləri göstərərək "What color is it?" sualını verir və cavablayır. | Fiziki obyektlər (rəngli qələm, kitab və s.) | Rəng adlarını sadə dialoqlarda və qarşılıqlı ünsiyyətdə tətbiq edir. |
| 4. | **Məlumat müzakirəsi** | 7 dəq. | Müəllim interaktiv təqdimatla rəngləri təkrar edir, slaydlarla rəng-obyekt əlaqəsi qurulur. Suallar: "Why is the apple red?" və s. | PowerPoint, səsləndirmə funksiyası olan təqdimatlar | Yeni öyrəndikləri məlumatları sinif müzakirəsi zamani izah edir, aydınlaşdırır və əsaslandırır. |
| 5. | **Ümumiləşdirmə və nəticə** | 6 dəq. | Müəllim lövhədə rənglərə dair sorğu-sual təşkil edir. Şagirdlər düzgün rəngi seçərək lövhəyə yaxınlaşır və təqdim edir. | Smart lövhə | Mövzu üzrə əsas anlayışları **ümumiləşdirir** və nümunələr üzərində **möhkəmləndirir** |
| 6. | **Yaradıcı tətbiqetmə** | 7 dəq. | Şagirdlər kağız və ya Paint tətbiqi ilə sevdikləri əşyaları rəngləyir, sonra təqdim edir: "This is my red car." | Rəqəmsal rəsm alətləri və illustrativ materiallar | Rənglər haqqında öyrəndiklərini yaradıcı şəkildə tətbiq edir və danışıq vərdişlərini inkişaf etdirir |
| 7. | **Qiymətləndirmə və refleksiya** | 5 dəq. | Padlet vasitəsilə refleksiya: "What color did you like?", "Which part was fun?" – emoji və ya sözlə cavablandırılır. | Padlet (rəqəmsal interaktiv lövhə) | Dərsə münasibətlərini ifadə edir, öz fəaliyyətlərini qiymətləndirir. |

Yuxarıda göstərdiyimiz nümunə müasir dərs prosesində rəqəmsal texnologiyaların pedaqoji dəyərini və fəal öyrənmə mühitinin qurulmasında oynadığı rolu nümayiş etdirir. Burada keys vasitəsilə həm müəllimlərin planlaşdırma bacarığı, həm də rəqəmsal resursların didaktik məqsədlərlə necə əlaqələndirildiyi aydın şəkildə müşahidə olunur. Bu dərs modeli, fəal təlimin mərhələlərinə əsaslanaraq qurulmuş bir nümunədir. Hər mərhələdə rəqəmsal vasitələrin məqsədyönlü istifadəsi şagirdin öyrənmə prosesində iştirakını gücləndirir. Nümunəyə əsasən qeyd etmək olar ki:

– *Rəqəmsal texnologiyaların istifadəsi sayəsində şagirdlər vizual və eşitmə kanallarını aktivləşdirərək daha effektiv şəkildə öyrənməyə nail oldular.*

– *Fəal iştirak və oyun vasitəsilə dərs əyləncəli və mənalı keçdi.*

– *Şagirdlər illustrativ vasitələrlə işləyərək cümlə qurmaq bacarığını inkişaf etdirdilər.*

– *Fərdi və cütlərlə iş forması vasitəsilə şagirdlərin kommunikativ bacarıları gücləndirildi* [4].

Rəqəmsal təlim vasitələrinin effektiv tətbiqi üçün bir neçə əsas şərtin təmin olunması mühüm əhəmiyyət daşıyır. İlk növbədə, bu texnologiyaların səmərəli istifadəsi üçün məktəblərin texniki-infrastruktur imkanlarının yetərli səviyyədə olması vacibdir. Kompüter otaqlarının mövcudluğu, sinif otaqlarında proyektor, interaktiv lövhələr, stabil internet bağlantısı və planşetlər kimi vasitələrin təmin edilməsi rəqəmsal resurslardan istifadəyə şərait yaradır. Lakin bir çox hallarda, xüsusilə region məktəblərində bu infrastrukturun tam formalaşmaması və texniki dəstəyin məhdud olması rəqəmsal texnologiyaların tətbiqini çətinləşdirir. İkinci mühüm amil müəllimlərin rəqəmsal savadlılıq səviyyəsi və texnologiyalardan istifadə bacarığıdır. Müasir dövrdə müəllim yalnız bilik ötürən deyil, eyni zamanda informasiya texnologiyalarını dərs prosesinə inteqrasiya edə bilən fasilitator rolunu oynamalıdır. Bunun üçün müəllimlərin İKT sahəsində sistemli biliklərə malik olması və rəqəmsal alətlərlə işləmə bacarıqlarının daim yenilənməsi vacibdir. Təəssüf ki, bəzi hallarda müəllimlər bu vasitələrdən istifadədə özlərini qeyri-müəyyən və ya narahat hiss edir, bu da onların texnologiyaya qarşı müqavimət göstərməsinə səbəb olur. Bununla əlaqədar olaraq, müəllimlər üçün mütəmadi və praktik yönümlü təlimlərin təşkili vacibdir. Bu təlimlər yalnız proqramların texniki istifadəsini deyil, həm də onların didaktik və pedaqoji aspektlərini əhatə etməlidir. Yəni müəllim bilməlidir ki, konkret bir tətbiq və ya platforma hansı dərs mərhələsində və hansı məqsədlə istifadə olunmalıdır. Üçüncü mühüm amil şagirdlərin texnologiyaya münasibəti və texniki hazırlıq səviyyəsidir. Əksər hallarda ibtidai sinif şagirdləri rəqəmsal texnologiyalara böyük maraq göstərir və onları daha sürətlə mənimsəyir. Lakin bu alətlərin istifadə qaydalarının onlara yaş səviyyəsinə uyğun və pedaqoji baxımdan düzgün şəkildə öyrədilməsi vacibdir. Həmçinin nəzərə almaq lazımdır ki, bəzən ailələrin texnoloji təminat səviyyəsi də fərqli ola bilər, bu da bərabər imkan prinsipinin pozulmasına səbəb ola bilər. Beləliklə, rəqəmsal təlim vasitələrinin effektiv tətbiqi üçün yalnız texniki avadanlığın mövcudluğu kifayət etmir. Bu prosesin uğurlu həyata keçirilməsi üçün infrastruktur, müəllim hazırlığı, pedaqoji metodika və şagird ehtiyacları qarşılıqlı şəkildə nəzərə alınmalı, təhsil siyasətində bu istiqamətlər üzrə sistemli yanaşma təmin edilməlidir.

Aparılan təhlillər və praktiki nümunələr göstərir ki, **ibtidai siniflərdə ingilis dili dərslərinin rəqəmsal texnologiyalar vasitəsilə təşkili** təlimin keyfiyyətinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Bu texnologiyalar tədris prosesini daha **interaktiv**, **cəlbedici** və **şagird yönümlü** etməklə, öyrənmənin yalnız mətnə və təkrara deyil, həm də vizual, səsli və fəaliyyətə əsaslanan formalarına keçidini təmin edir. Rəqəmsal vasitələrin tətbiqi sayəsində şagirdlərin **dil öyrənməyə olan marağı artır**, onların **dinləmə, danışma, oxuma və yazma** kimi əsas dil bacarıqları daha təbii və ardıcıl şəkildə formalaşır. Eyni zamanda, bu alətlər uşaqların **fərdi öyrənmə tempinə** uyğunlaşmaqla yanaşı, onların **yaradıcılığını**, **tənqidi təfəkkürünü** və **komanda ilə işləmək** bacarıqlarını da inkişaf etdirir.

Lakin bu prosesin uğurla həyata keçirilməsi üçün bir sıra əsas şərtlərin təmin edilməsi vacibdir. **İnnovativ yanaşmaların tətbiqi** yalnız texnologiyanın istifadəsi ilə məhdudlaşmamalıdır. Bu yanaşmaların səmərəsi birbaşa olaraq **müəllimlərin peşəkarlıq səviyyəsi**, **rəqəmsal savadlılığı** və **təlim strategiyalarını düzgün seçmə bacarığı** ilə sıx bağlıdır. Müəllimlər yeni texnologiyaları dərsin məqsədinə uyğun şəkildə seçməli və onların tədris prosesində didaktik dəyərini

düzgün müəyyənləşdirməlidirlər. Bununla yanaşı, **məktəblərin maddi-texniki bazasının gücləndirilməsi** və bərabər təhsil imkanlarının yaradılması da əsas prioritetlərdən biri olmalıdır. Müasir texnologiyalarla təchiz olunmuş sinif otaqları, sürətli internet bağlantısı, planşet və kompüterlər, interaktiv lövhələr və digər vasitələr olmadan rəqəmsal təlimin tam tətbiqi mümkün deyil.

**Nəticə** etibarilə, ibtidai təhsildə ingilis dili dərslərinin rəqəmsal texnologiyalarla təşkili, ənənəvi tədris modellərindən fərqli olaraq, **şagirdin aktivliyini, motivasiyasını və funksional dil biliklərini** artırmağa xidmət edir. Bu istiqamətdə aparılan islahatların uğurla həyata keçirilməsi üçün **pedoqoji kadr hazırlığı, infrastruktur dəstəyi və davamlı təkmilləşmə mexanizmləri** birlikdə planlaşdırılmalı və mərhələli şəkildə həyata keçirilməlidir.

**Ədəbiyyat:**
1. Cambridge Assessment. (2021). Digital tools and approaches in language education. https://www.cambridge.org
2. Dudeney, G., & Hockly, N. (2012). How to teach English with technology (pp. 20–78). Pearson Longman.
3. Harmer, J. (2015). The practice of English language teaching (5th ed., pp. 95–134). Pearson Education Limited.
4. UNESCO. (2019). ICT in education: A critical literature review and its implications (pp. 5–42). UNESCO Publications.
5. Warschauer, M. (2004). Technological change and the future of CALL. In S. Fotos & C. Browne (Eds.), New perspectives on CALL for second language classrooms (pp. 15–25). Routledge.
6. https://www.scirp.org/reference/referencespapers?referenceid=435124
7. https://www.simplypsychology.org/zone-of-proximal-development.html

**Gulnar Abdullayeva**

**Summary**

**PEDAGOGICAL FOUNDATIONS OF THE APPLICATION OF DIGITAL TECHNOLOGIES IN PRIMARY SCHOOLS**

The article examines the pedagogical foundations of the application of digital technologies in teaching English in primary schools. The rapid development of technologies in the modern educational environment necessitates the integration of new approaches and innovative methods into the teaching process. In this regard, the purposeful use of digital technologies in English lessons in accordance with the age characteristics of primary school students plays an important role in the development of their language skills. The article analyzes the impact of the use of interactive whiteboards, mobile applications, online platforms and multimedia resources on student motivation, learning activity and communicative skills. At the same time, the role of increasing teachers' digital literacy, the ability to effectively use technological resources in teaching and material and technical support is also considered. As a result, it is noted that the pedagogically justified application of digital technologies not only enriches the learning process, but also develops the student's creative thinking, interest in language and independent learning skills.

**Гюльнар Абдуллаева**

**Резюме**

## ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ПРИМЕНЕНИЯ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В НАЧАЛЬНЫХ КЛАССАХ

В статье рассматриваются педагогические основы применения цифровых технологий в обучении английскому языку в начальной школе. Стремительное развитие технологий в современной образовательной среде обуславливает необходимость интеграции новых подходов и инновационных методов в процесс обучения. В этой связи целенаправленное использование цифровых технологий на уроках английского языка в соответствии с возрастными особенностями учащихся начальной школы играет важную роль в развитии их языковых навыков. В статье анализируется влияние использования интерактивных досок, мобильных приложений, онлайн-платформ и мультимедийных ресурсов на мотивацию, учебную активность и коммуникативные навыки учащихся. При этом рассматривается роль повышения цифровой грамотности учителей, умения эффективно использовать технологические ресурсы в обучении и материально-техническое обеспечение. В результате отмечается, что педагогически обоснованное применение цифровых технологий не только обогащает процесс обучения, но и развивает у учащихся творческое мышление, интерес к языку и навыки самостоятельного обучения.

*Rəyçi: ped.f.d. Ş.Tahirova*